**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2024.2.33**

**YAŞAR RƏHİMOV**

# DUZDAĞIN 1901-1907-Cİ İLLƏR TARİXİNƏ DAİR
## (rus mənbələri əsasında)

*Qədim dövrlərdən bölgənin həyatında mühüm rol oynayan Naxçıvan duzuna XX əsrin birinci yarısında, o cümlədən 1901-1907-ci illərdə böyük tələbat olmuşdur. Bu illərdə sənaye və iqtisadiyyatda tələbatın yüksək olması səbəbindən duz istehsalı xeyli artmışdır. Naxçıvan duzu Cənubi Qafqazın bütün bölgələrinə daşınırdı. Qeyd edək ki, ölkəmizdə Duzdağ daş duz yataqlarından çıxarılan duz soda istehsalı ilə yanaşı, müxtəlif sənaye sahələri üçün əvəzsiz xammaldır. 1901-1907-ci illərdə Duzdağın vəziyyəti, Naxçıvan duz mədənlərinin fəaliyyəti və duz istehsalı ilə bağlı məsələlər tədqiq edilmişdir.*

*Məqalədə 1901-1907-ci illərdə Naxçıvanın duz sənayesi rus mənbələri əsasında araşdırılmışdır. Rus yazıçıları R.İvanov, N.Sokolski, Q.Sultanov, K.Smirnovun məqalələri və Naxçıvan bölgəsinin duz sənayesi ilə bağlı tədqiqat materialları nəzərdən keçirilmiş və tədqiqata daxil edilmişdir. Müəyyən edilmişdir ki, bu dövrdə Naxçıvan-Duzdağdakı duz mədənləri ilkin emala məruz qalmış və ilkin texnikaya əsaslanmışdır. Məqalədə duz mədənlərinin yeri, hasilat texnologiyası, kəmiyyət, qiymət və satış problemlərindən də bəhs edilir.*

*Sonda bu dövrdə ölkədə etnik münaqişələr arasında etnik ədavət nəticəsində Naxçıvanda duz sənayesinə dəymiş ziyan haqqında məlumat verilir.*

**Açar sözlər***: duz, Naxçıvan, duzun qiyməti, ixrac, rayon, Duzdağ, duzun keyfiyyəti.*

**Giriş.** Naxçıvan bölgəsi özünün zəngin və qədim tarixi, coğrafi mövqeyi, qiymətli abidələri, mühüm iqtisadi və ticarət əhəmiyyətinə görə XX əsrdə də Rusiyanın qabaqcıl ziyalılarının-tarixçilərin, etnoqrafların, iqtisadçıların, diplomatların nəzər-diqqətini cəlb etmişdir. XX əsrin əvvəllərindən başlayaraq Naxçıvana gələn rus məmurları, səyyahları, ziyalıları bölgə tarixinin müxtəlif məsələləri ilə bağlı maraqlı yazılar yazmış və ətraflı məlumatlar vermişlər. Bu dövr rus müəllifləri və tədqiqatçıları Rusiya imperiyasının işğalçılıq siyasətinə haqq qazandırır, tarixi proses və hadisələrin əsil mahiyyətini göstərməyə o qədər də can atmırdılar. XX əsrin əvvəllərinə aid rus mənbələrində Naxçıvan bölgəsinin sosial-iqtisadi vəziyyəti haqqında da müəyyən məlumatlar vardır. Rus müəlliflərindən N.Sokolskinin, K.N.Smirnovun əsərləri, xülasələr, toplular və digər müxtəlif nəşrlər bu cəhətdən diqqəti cəlb edir.

XX əsrin əvvəlləri Naxçıvanın sosial-iqtisadi vəziyyəti ilə bağlı məsələlər yuxarıda adı çəkilən rus müəllifləri tərəfindən araşdırılmışdır. Xüsusilə N.Sokolskinin 1933-cü ildə Tiflisdə ikinci dəfə nəşr edilmiş və 182 səhifədən ibarət olan "Материалы по изучению Нахчыванской ССР" adlı kitabı iqtisadi xarakterli məlumatlarla zəngindir. Bu məlumatların içərisində elmi əhəmiyyət kəsb edən faktlarla yanaşı, reallıqdan uzaq olan əsassız fikirlərə və yanlışlıqlara da təsadüf edirik. Fikrimizcə, bu cür səhvlər rus müəlliflərinin yerli xalqın dilini bilməməsi ilə yanaşı, onların əksəriyyətinin erməni və ermənipərəst müəlliflərdən aldığı material və məlumatlardan istifadə etmələri nəticəsində yaranmışdır.

Bəhs edilən dövrə aid olan tarixi mənbələrdə, almanaxlarda, arayışlarda, məktublarda, toplularda və digər müxtəlif nəşrlərdə Naxçıvan bölgəsinin iqtisadi vəziyyəti, ilk növbədə kənd təsərrüfatının və sənayenin ayrı-ayrı bölmələri haqqında da məlumatlar verilir. Bu araşdırma və tədqiqatlarda Naxçıvan bölgəsinin kənd təsərrüfatının ümumi xüsusiyyətləri ilə yanaşı olaraq onun su mənbələri, pambıqçılıq və tütünçülük, ipəkçiliyin, üzümçülüyün, arıçı-

lığın, heyvandarlığın vəziyyəti hərtərəfli təhlil edilir. N.Sokolskinin “Материалы по изучению Нахчыванской ССР” adlı kitabında bölgədə taxılçılığın, meşə təsərrüfatının və kənd təsərrüfatının digər sahələrinin vəziyyətinə dair zəngin məlumatlar verilmişdir.

**Naxçıvan bölgəsinin duz “sənayesi”.** Məlum olduğu kimi sosial-iqtisadi inkişafın əsas və başlıca göstəriciləri sənaye sahəsinin ümumi inkişaf tempi ilə əlaqədardır. Tarixi və iqtisadi mənbələrdə 1901-1907-ci illərdə Naxçıvan sənayesinin ayrı-ayrı bölmələrinin inkişaf qanunauyğunluqları, özünəməxsus xüsusiyyətləri və b. məsələlər də öz əksinin tapmışdır. Duz sənayesi, tikinti materialları sənayesi, ipəkayırma və pambıqtəmizləmə sənayesi, konserv və şərabçılıq, yerli sənaye, geoloji axtarışlar və kəşfiyyat haqqında verilən məlumatlar diqqəti cəlb edir. Fikrimizcə, bu mənbələrin əksəriyyəti Naxçıvan regionunun 1901-1907-ci illərdə sosial-iqtisadi həyat tərzində baş vermiş kəmiyyət və keyfiyyət dəyişikliklərini izləmək baxımından da mühüm elmi əhəmiyyət kəsb edir.

N.Sokolskinin “Материалы по изучению Нахчыванской ССР” adlı kitabı bu mənbələr içərisində faktların dolğunluğu və məlumatların zənginliyi ilə seçilir. Müəllifin 1933-cü ildə Tiflisdə nəşr etdirdiyi bu kitabı sırf XX əsrin I yarısına aid Naxçıvan diyarının iqtisadiyyatına dair məsələləri özündə əks etdirir. Mənbədə bəhs edilən dövrə – 1901-1907-ci illərə aid olan fakt və materiallar xüsusi maraq doğurur. Əsərdəki materialların araşdırılıb tədqiq edilməsi elmi baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu mənbə bölgə iqtisadiyyatının yaradılması, inkişafı, formalaşması və sistemləşdirilməsini öyrənmək baxımından da müstəsna əhəmiyyətə malikdir. Xalq təsərrüfatının əsas sahələri olan rabitə, transport, kommunal təsərrüfat, maarif və səhiyyə, o cümlədən yerli və dövlət büdcəsi haqqında verilən məlumatlar daha qiymətlidir. Naxçıvan bölgəsinin regionlarında fəaliyyət göstərən sənaye və kənd təsərrüfatı müəssisələrinin yaradılması, istehsal sahələrinin genişləndirilməsi və yenidən qurulmasını tarixi faktlar əsasında göstərən müəllif müəyyənləşdirmişdir ki, ərazidə iqtisadiyyatı inkişaf etdirmək üçün böyük əhəmiyyətə malik olan ekoloji şərait, məhsuldar qüvvələr, kənd təsərrüfatı məhsulları, iqtisadi və müalicə əhəmiyyətli mineral sular və b. amillər vardır.

Tədqiqatdan və tarixi ədəbiyyatların təhlilindən məlum olur ki, XX yüzilliyin əvvəllərində bölgənin sənayesi bir neçə kiçik müəssisədən, o cümlədən az miqdarda məhsul verən və ibtidai üsulla işləyən duz mədənindən, kərpic bişirən kürədən, yarımkustar üsulla işləyən ipək, gön və pambıqtəmizləyən xırda müəssisələrdən ibarət olmuşdur. Mənbələrin təhlili sübut edir ki, bölgənin regionlarında sənaye müəssisələrinin artım sürəti yeni yaradılmış müəssisələrin hesabına olmuşdur. Duzdağın vəziyyətinin, Naxçıvan duz mədənlərinin 1901-1907-ci illərdə fəaliyyətinin və duz hasilatının maraq doğurduğunu nəzərə alıb, qısa məlumat verməyi məqsədəuyğun hesab edirik.

İlk öncə qeyd edək ki, bölgədə fəaliyyət göstərən bu sənaye müəssisələri artıq XX əsrin əvvəllərindən başlayaraq təkcə yerli deyil, Cənubi Qafqaz əhəmiyyətli müəssisələrə çevrilirdi. Naxçıvan duz mədənləri bir çox rus mənbələrində “duz sənayesi” də adlandırılır. Naxçıvan tarixinə aid olan bir neçə rus mənbəsində Duzdağı, diyarımızda hasil edilən duzun keyfiyyəti, ixracı, qiyməti, miqdarı və s. məsələlər haqqında maraqlı məlumatlar əldə etmək mümkündür. Hələ XIX əsrdə bu mədənlər bölgədə olmuş rus sənayeçilərinin, səyyahların diqqətini cəlb etmiş, duz yataqlarının yerləşdiyi ərazi, duzun çıxarılma texnologiyası onları maraqlandırmışdır. Fikrimizcə, Naxçıvanda duz çıxarılması çox qədim dövrdən-hələ daş dövründən mövcud olmuşdur.

Qədim zamanlardan başlayaraq bölgənin həyatında ciddi rol oynayan Naxçıvan duzuna

XX əsrin I yarısında, o cümlədən 1901-1907-ci illərdə də böyük ehtiyac olmuşdur. Həmin illərdə sənaye sahəsində, məişətdə və təsərrüfatdakı böyük tələbata görə duz istehsalı xeyli artırılmışdı. Bəhs edilən dövrdə Naxçıvan duzu Cənubi Qafqazın bütün regionlarına aparılırdı. Qeyd edək ki, diyarımızdakı daş duz yataqlarından çıxarılan duz soda istehsalı ilə yanaşı, müxtəlif sənaye sahələri üçün əvəzolunmaz xammal idi.

**Duzdağın duz mədənləri 1901-1907-ci illərdə.** Tarixən Azərbaycan ərazisində duz hasilatının əsas xammal mənbəyi Naxçıvandakı duz mədənləri və Abşerondakı duz yataqları olmuşdur. Naxçıvan bölgəsində olan duz yataqlarının çox çətin, ziddiyyətli və mürəkkəb inkişaf yolu keçdiyini göstərən N.Sokolski yazırdı ki, bunlardan ikisi: I – Naxçıvan şəhərindən 13-14 km şimal-qərbdə yerləşən V.İ.Lenin adına duz yataqları, II – Sust kəndindən 24 km şimalda yerləşən 26 kommunar adına duz yataqları daha çox istismar edilirdi [2, s. 84]. Duz yataqlarında olan duz ehtiyatları da maraq doğuran məsələlərdən biridir. Yeri gəlmişkən bu yataqlarda olan duz ehtiyatları haqqında müxtəlif rəqəmlər verilir. XX əsrin əvvəllərinə aid olan bir rus mənbəyində Lenin adına olan Naxçıvan duz mədənlərində 55 milyon ton, Sust duz mədənlərində isə 45 milyon ton daş duz ehtiyatları olduğu bildirilir [2, s. 85].

Regiondakı sosial-siyasi və hərbi vəziyyət iqtisadiyyatın bütün sahələrinə, o cümlədən duz hasilatına mənfi təsir göstərmişdir. Bu dövrdə bütün Qafqaz ölkələri kimi Azərbaycan da Krımdan və Türkmənistandan (Kullin duzu) gətirilən duzla təchiz edilmişdi. Məlumata görə 1921/1922-ci illərdə yaradılmış Xüsusi Qafqaz Ordusu Naxçıvan duz mədənlərinin yenidən qurulması və istismarı sahəsində başlıca rol oynamışdır. Rus mənbələrinin təhlilindən belə məlum olur ki, XX əsrin əvvəllərindən başlayaraq Naxçıvan duz yataqları müxtəlif trest, komitə, təşkilat və cəmiyyətlərin tərkibinə qatılmışdır. N.Sokolski yazırdı ki, bölgədəki duz istismarı duz sənaye cəmiyyətlərinin (məs; “Solprom”), daha sonra xalq sənaye-ticarət komitəsinin əlində cəmlənmişdi. Xüsusi Qafqaz Ordusunun xəttilə müxtəlif vaxtlarda ayrıca “duz ekspedisiyaları” təşkil edilmişdi [2, s. 86].

Bölgədəki duz mədənləri uzun müddət erməni, yəhudi və b. əcnəbi sahibkarların ixtiyarında olmuşdur. Rus mühəndisi V.Q.Yudoviç adlı şəxsin xeyli müddət Naxçıvan duz mədənlərinin direktoru vəzifəsində çalışmasını tarixi mənbə də təsdiqləyir. Bu siyahını uzatmaq olar. Erməni ekstremistlərinin hələ ötən əsrin 50-60-cı illərində bölgənin duz mədənlərində yaratdığı münaqişələr və törətdiyi təxribatlar bütövlükdə muxtar respublika iqtisadiyyatının bütün sahələrinə ciddi ziyan vurmuşdur. O zamankı sovet rəhbərliyinin bütün bunlara göz yumması nəticəsində bölgədəki duz mədənləri çox acınacaqlı və yararsız vəziyyətə düşmüşdür. Müasir dövrdə mühüm uğurlar və nailiyyətlər əldə edilən Naxçıvan duz sənayesi çox çətin, mürəkkəb və ziddiyyətli inkişaf yolu keçmişdir.

Əldə olan məlumata görə, 1903-1913-cü illərdə Naxçıvan duz mədənlərindən 1.755.086 pud, Sust mədənindən 806.488 pud duz çıxarılmışdı. Naxçıvan duz yataqlarında istehsal olunan məhsulun daşınması uzun müddət problem məsələ olaraq qalmışdı. 1901-1907-ci illərdə çətinlik törədən əsas məsələlərdən biri də nəqliyyat çatışmazlığı ilə bağlı olmuşdu. Məişətdə və təsərrüfatdakı tələbata görə artan duz istehsalının ixracını təmin etmək üçün mədənlərə yeni və əlverişli yol çəkmək məsələsi həll edilməli idi. Duz mədənlərinin yaxınlığındakı dəmiryol stansiyasına kanat yolun çəkilməsi ilə bu problem öz uğurlu həllini tapdı. Baş-Başı dəmiryol stansiyasınadək uzanan bu kanat yolun tikintisinə 1926-cı ildə başlanmış və qısa bir vaxtda – 1929-cu ildə o, istismara verilmişdi. XX əsr rus müəllifi N.Sokolski yazırdı ki, bölgədə sənayeləşdirmənin başlamasının ilk əlaməti olan bu yolun çəkilişi duz səna-

yesinin yüksək sürətlə inkişaf etməsinə şərait yaratdı [2, s. 88]. Bütün bunlar nəticə etibarilə istehsalın artmasına və daşıma xərclərinin azalmasına səbəb oldu.

Naxçıvan duzunun keyfiyyəti məsələsi uzun müddət mübahisəli olmuşdur. Mütəxəssislər bu barədə müxtəlif fikirlər irəli sürmüşlər. Onların bir qismi Naxçıvan mədənlərində istehsal olunan duzun keyfiyyətinə görə Ukrayna və Türkmənistan duzundan aşağı səviyyədə olduğunu, bəziləri isə əksinə Naxçıvan duzunun Cənubi Qafqaza gətirilən duzlardan keyfiyyətcə üstün olduğunu iddia edirlər. Bölgəmizdə çıxarılan duz əsasən mal-qaranın yemlənməsində, sənaye və texnikanın müxtəlif sahələrində, habelə təsərrüfat məqsədilə-dəri və sabun istehsalında da istifadə edilirdi.

Bölgəmizdəki duz yataqlarının yerləşdiyi ərazi, çıxarılan duzun həcmi, miqdarı və qiyməti haqqında müxtəlif mənbələrdə – H.Sultanovun [3, s. 27-28], N.Sokolskinin [2, s. 84-88] və b. əsərlərində, toplu və arxiv sənədlərində zəngin məlumatlar vardır. Mənbələrin təhlilindən aydın olur ki, əvvəlki dövrlərdə olduğu kimi, 1901-1907-ci illərdə də ərazidəki duz mədənlərində istehsal primitiv texnikaya əsaslanmış və məhdud xarakter daşımışdır. Suyun olmaması çətinlik törədən məsələlərdən olmuşdur. Məlumata görə suyu Naxçıvandan 12-15 verst kənarda olan bir ərazidən gətirirmişlər. Duzçıxaranlar, məmurlar və fəhlələr kiçik yeraltı daxmalarda yaşayırlarmış. Nəqliyyat çatışmazlığı və duzun daşınması sahəsində ciddi çətinliklər var idi. Yaxınlığındakı Baş-Başı dəmiryol stansiyasına kanat yolun çəkilməsi ilə bu problem həllini tapdı. Diyarımızdakı daş duz yataqlarından çıxarılan duz soda istehsalı ilə yanaşı, müxtəlif sənaye sahələri üçün əvəzolunmaz xammal idi.

Naxçıvandakı duz yataqlarının ölçülərindən bəhs edən R.İvanov yazırdı ki, Naxçıvan diyarında artıq yüz ildən çoxdur ki, duz çıxarılır, geoloji kəşfiyyat və qazıntı nümunələrinin tamamilə yoxluğu səbəbindən biz duz yataqlarının dəqiq ölçülərini bilmirik, ancaq əlamətlər onların çox böyük olduğunu və həm də çox dərində deyil, az qala yerin səthində yerləşdiyini göstərir; bu da bütün Zaqafqaziya üçün çox zəruri olan bir məhsulun asan və ucuz hasil edilməsinə imkan verir [1, s. 208].

XX əsrin əvvəllərində vəziyyət bir qədər yaxşılaşmışdı. Duz sənayeçisi əvvəllər icra müqabilində xəzinəyə 1600 manat ödəyirdisə, son hərracın şərtlərinə görə icarə haqqı 4800 manata qaldırılmışdı. Sustun duz mədənləri əvvəlki illərdə başqa icarədarın istifadəsində olsa da, 1907-ci ildən mədənlər onların sahiblərinin özlərinə qaytarıldı. Elə həmin ildə Hacı Xudadad xan Kərbalıxanov qardaşları ilə birlikdə “Kərbalıxanov və Ko” ticarət evini təşkil etdilər. Ticarət evi Qafqaz dağ-mədən departamentinin şərtinə görə mədənlərdən ildə 100 min puddan çox duz çıxarmamalı idi. Sahibkarların bir neçə il ərzində yuxarı dairələrə yazmalarından sonra Sənaye və Ticarət nazirliyi bu şərti ləğv etdi. Həm xəzinə mədənlərindən, həm də sahibkarlara məxsus mədənlərdən qeyri-məhdud miqdarda duz çıxarılmasına icazə verildi.

Ümumiyyətlə, XX əsrin əvvəllərində Naxçıvan qəzasında konkret rəqəmlərin göstərildiyi cədvəlin təhlilindən görünür ki, daş duz istehsalında sabit inkişaf olmamışdır. Ayrı-ayrı illər üzrə artıb-azalmalar diqqəti cəlb edir. Bu vəziyyət mənbələrdəki müəyyən natamamlıqdan irəli gəlir. Bəzi illərdə çıxarılan duzun həcmi çox olmuşdur. Məs; xəzinə mədənlərindən 1902-1903 və 1905-ci ildə orta hesabla 400-500 min pud daş duz istehsal edilmişdi. Bu baxımdan 1909, 1912 və 1914-cü illəri də xəzinə üçün uğurlu hesab etmək olar.

Bəhs edilən dövrdə Duzdağın duz mədənləri bədbəxt hadisələrsiz də ötüşmürdü. Buradakı duz mədənlərində tez-tez uçqunlar baş verirdi. 1904-1907-cı illərdə baş vermiş uçqunlar zamanı bir neçə mədən yararsız vəziyyətə düşmüş və onlarla insan dünyasını dəyişmişdir. Bu cür xoşagəlməz hadisələr zamanı Duzdağın bir neçə mədəni öz fəaliyyətini dayandırmışdır.

**Nəticə.** Beləliklə, əvvəlki dövrlərdə olduğu kimi, bəhs edilən illərdə də Duzdağ duz mədənlərinin sayına və burada istehsal edilən duzun miqdarına görə fərqlənmişdir. İstehsal edilən duz təsərrüfatda, məişətdə və texnikanın müxtəlif sahələrində istifadə edilmişdir. Yay aylarında duz almaq üçün Duzdağ mədənlərinə gələn karvanların sayı artırdı. Həmin aylar buradakı duz mədənlərində çalışan işçilərin sayı payız mövsümündə çalışan işçilərin sayından 2-3 dəfə çox olurdu. Fikrimizçə, bunun səbəbi fəsil dəyişməsi və havaların soyuması ilə əlaqədar idi. Tarixi mənbələr də Duzdağda duz istehsalının azalmasında əsas amil kimi onun mövsümi xarakter daşıdığını təsdiqləyirlər. Duzdağ mədənlərindən çıxarılan duz mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılmışdır.

Rus müəlliflərinin böyük bir qrupu təmsil etdikləri dövlətin müstəmləkəçilik siyasətinə rəvac verməklə yanaşı olaraq, tarixi hadisə və proseslərin əsil mahiyyətini açmağa o qədər də çalışmırdılar. Burada bir faktı qeyd etmək yerinə düşər ki, rus müəllifləri yerli xalqın dilini bilmir və istər-istəməz bölgəyə köçürülən erməni və ermənipərəst adamlardan məlumat və materiallar toplayırdılar. Bu da yuxarıda deyildiyi kimi qeyri-obyektiv, təhriflərə yol verilmiş və tarixi həqiqətləri əks etdirməyən elmi əsərlərin yaranmasına gətirib çıxarırdı. Özlərinin şəxsi ictimai-siyasi baxışlarından çıxış edən bu rus müəlliflərinin əksəriyyətinin əsərləri imperiya siyasətinə haqq qazandırmaq nöqteyi-nəzərindən yazılır və bölgə həyatının bütün sahələrinə aid məlumatlar toplanılırdı. Fikrimizcə, Naxçıvan tarixinin tədqiqi zamanı istifadə edilən rus mənbələrinin demək olar ki, hamısında göstərilən fakt və rəqəmləri olduğu kimi qəbul etmək düzgün olmaz. Yəni bu əsərləri tədqiq edərkən onlar tənqid süzgəcindən keçirilməli, diqqətlə və hərtərəfli araşdırılmalıdır. Bu mənbələrdə demoqrafik məsələlər, bölgənin əhalisi və ərazisi barəsində verilən yanlış məlumatlar özünü qabarıq şəkildə göstərir. Deyilənlər belə bir fikir söyləməyə əsas verir ki, ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna etməklə, rus mənbələrinin böyük əksəriyyəti Naxçıvan tarixi üçün əvəzsiz və qiymətli mənbələrdir.

## ƏDƏBİYYAT


1. İvanov R. Basqın. Bolşeviklərin sovet torpağı qədim Naxçıvanda azğınlıqları haqda acı həqiqətlər. Naxçıvan: Əcəmi, 2009, 463 s.
2. Сокольский Н.А. Материалы по изучению Нахичеванской ССР. Тифлис: ЗакГИЗ, 1993, 184 с.
3. Султанов Г. Нахкрай и его экономика. Баку, 1927, 249 с.
4. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.


***AMEA Naxçıvan Bölməsi***
***E-mail: yasarrahimov@yahoo.com***

**Yashar Rahimov**

## THE HISTORY OF DUZDAG IN 1901-1907
## (based on Russian sources)

Nakhchivan salt, which played a significant role in the life of the region since ancient times, was in great demand in the first half of the twentieth century, including in 1901-1907. In those years, salt production was significantly increased due to high demand in industry and the economy. Nakhchivan salt was transported to all regions of the South Caucasus. It should be noted that the salt mined in our country at the Duzdag rock salt deposit is an indispensable raw material for various industries, along with soda. The situation in Duzdag in 1901-1907, the activities of the Nakhchivan salt mines and issues related to salt mining are considered.

This article, based on Russian sources, examines the salt industry of Nakhchivan in 1901-1907. The articles of such Russian authors as R.Ivanov, N.Sokolsky, G.Sultanov, K.Smirnov and research materials related to the salt industry of the Nakhchivan region were reviewed and included in the study. It was established that during this period the Nakhchivan-Duzdag salt mines underwent primary development based on primitive technology. The article also discusses the location of the salt mines, production technology, quantity, price and marketing issues.

Information is also provided on the damage caused to the salt industry of Nakhchivan as a result of interethnic hostility and ethnic conflicts in the country during this period.

**Keywords:** *salt, Nakhchivan, salt price, export, region, Duzdag, salt quality.*

**Яшар Рагимов**

## ОБ ИСТОРИИ ДУЗДАГА В 1901-1907 ГОДАХ
## (по материалам российских источников)

Нахчыванская соль, игравшая значительную роль в жизни региона с древних времен, пользовалась большим спросом в первой половине XX века, в том числе в 1901-1907 годах. В те годы производство соли было значительно увеличено в связи с высоким спросом в промышленности и экономике. Нахчыванская соль транспортировалась во все регионы Южного Кавказа. Следует отметить, что соль, добываемая в нашей стране на Дуздагском месторождении каменной соли, является незаменимым сырьем для различных отраслей промышленности, наряду с содой. Рассмотрено положение Дуздага в 1901-1907 годах, деятельность Нахчыванских соляных копей и вопросы, связанные с добычей соли.

В данной статье по русским источникам исследована соляная промышленность Нахчывана в 1901-1907 годах. Были рассмотрены и включены в исследование статьи русских авторов Р.Иванова, Н.Сокольского, Г.Султанова, К.Смирнова и материалы исследований, связанные с соляной промышленностью Нахчыванского региона. Установлено, что в этот период соляные шахты Нахчыван-Дуздага подверглись первичной разработке, основнной на примитивной технологии. В статье также рассматривается расположение соляных шахт, технология производства, количество, цена и проблемы сбыта.

Также представлена информация об ущербе, нанесенном соляной промышленности Нахчывана в результате межнациональной вражды и этнических конфликтов в стране в этот период.

**Ключевые слова:** *соль, Нахчыван, цена на соль, экспорт, регион, Дуздаг, качество соли.*

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 13.09.2024**
**Son variant 02.10.2024**